*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2025, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 66-73* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2025.1.66*

# Ryunosuke Akutaqavanın yaradıcılığında ölüm və intihar mövzusunun inikası

**Gülnar Yunusova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: gulnaryunusova@yahoo.com

**Annotasiya.** XX əsr yapon ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan Ryunosuke Akutaqava insan psixikasının qaranlıq qatlarını, fərdin mənəvi dilemmasını və ekzistensial böhranını bədii şəkildə ifadə etməyi bacaran yazıçılardandır. Yazıçının yaradıcılığında ölüm və intihar mövzusu yalnız fiziki yoxluq deyil, həm də insanın daxili parçalanması, cəmiyyət və özü ilə bağlarının qopması kontekstində təqdim olunur. Bu baxımdan, Akutaqavanın əsərlərində ölüm bir hadisə olaraq deyil, daha çox psixoloji və fəlsəfi vəziyyətin – mənəvi boşluğun, dəyərlər sisteminin çöküşünün və həyatla əlaqənin zəifləməsinin ifadəsi kimi çıxış edir. Yazıçının bu şəkildə yanaşması onu dövrünün bir çox realist yazıçılarından fərqləndirir. Xüsusilə ölüm və mənəviyyatla bağlı təhlilləri Akutaqavanı ekzistensializm fəlsəfəsilə bağlayır. Freydin təsiri ilə insanın şüuraltı motivlərini, nevrotik durumlarını və tənhalığını təsvir etməsi isə birbaşa psixoloji realizmlə səsləşir. Eyni zamanda ölüm, qaranlıq, tənhalıq, dişli çarxlar, qapı (Raşomon) kimi simvolik obrazlar yazıçının düşüncə tərzində simvolizmin – simvolist yanaşmanın təzahürləridir. Daxili gərginliyin vizual formalarla təqdimatı isə ekspressionizm elementləridir.
Akutaqavanın qəhrəmanları tez-tez dünyaya, insanlara və özlərinə olan inamı itirirlər. Onların daxili aləmində hökm sürən tənhalıq, boşluq və mənasızlıq hissi getdikcə güclənir və bu da nəticədə ölüm düşüncəsinin labüd şəkildə ortaya çıxmasına səbəb olur. Bu ölüm bəzən açıq şəkildə göstərilməsə də, qəhrəmanın ruhi tükənməsi, emosional əlaqələrin qırılması və dəyərlərin dağılması kimi təqdim olunur. Beləliklə, intihar burada yalnız bioloji yoxluq deyil, həm də mənəvi intihar, yəni vicdanın, inamın və məqsədin itirilməsi ilə assosiasiya olunur. Akutaqavanın qəhrəmanları Haydegerin ifadəsi ilə desək, "ölümün fərqində olan varlıqlar"dır, onlar üçün ölüm sadəcə bir son deyil, həyatın mahiyyətini sorğulama vasitəsidir. Digər tərəfdən, J.P.Sartr intiharı insanın iradə azadlığının son həddə çatmış forması kimi şərh edir ki, Akutaqava yaradıcılığında da intihar heç də həmişə zəifliyin yox, bəzən şüurlu seçim və mənəvi etirazın ifadəsi şəklində təzahür edir.
**Açar sözlər:** Yapon ədəbiyyatı, Ryunosuke Akutaqava, ölüm, intihar, daxili parçalanma, boşluq

**Məqalə tarixçəsi:** göndərilib – 23.06.2025; qəbul edilib – 09.07.2025

# The reflection of death and suicide in the works of Ryunosuke Akutagawa

**Gulnar Yunusova**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi
E-mail: gulnaryunusova@yahoo.com

**Abstarct.** Ryūnosuke Akutagawa, one of the most prominent representatives of 20th century Japanese literature, is known for his ability to artistically express the dark layers of the human psyche, the moral dilemmas of the individual, and existential crises. In his works, the themes of death and suicide are not merely presented as physical absence but, rather, as representations of the inner fragmentation of the self, the severance of ties with both society and the self. From this perspective, death in Akutagawa's works is not simply an event, but rather a psychological and philosophical state – an expression of spiritual emptiness, the collapse of value systems, and the weakening of the connection to life. This approach distinguishes him from many of the realist writers of his time. In particular, his analyses of death and spirituality align him with the philosophy of existentialism. His depiction of unconscious motives, neurotic conditions, and solitude – under the influence of Freud – resonates strongly with psychological realism. At the same time, symbolic images such as death, darkness, loneliness, and the gate (as in Rashomon) reveal the influence of symbolism – of a symbolist approach – in the author's mode of thought. The presentation of inner tension through visual forms constitutes elements of expressionism.
Akutagawa's protagonists often lose their trust in the world, in others, and in themselves. The sense of isolation, emptiness, and meaninglessness that dominates their inner worlds gradually intensifies, ultimately leading to the inevitable emergence of thoughts about death. Though this death is not always explicitly shown, it is represented through the protagonist's psychological exhaustion, the breakdown of emotional connections, and the disintegration of values. Thus, suicide in Akutagawa's works is not just biological absence, but also a form of spiritual suicide – an association with the loss of conscience, faith, and purpose. In this way, the protagonists in Akutagawa's works, in the words of Heidegger, are "beings aware of their death" for them, death is not merely an end, but a means to question the essence of life itself. On the other hand, Jean-Paul Sartre interprets suicide as the ultimate form of human freedom, the exercise of the will in its most radical form. In Akutagawa's works, suicide is not always depicted as a sign of weakness, but at times as a conscious choice or a form of moral protest.
**Keywords:** Japanese literature, Ryūnosuke Akutagawa, death, suicide, inner fragmentation, emptiness

**Article history:** received – 23.06.2025; accepted − 09.07.2025

## Giriş / *Introduction*

Ryunosuke Akutaqava yapon ədəbiyyatının Tayşo (1912-1926) dövrünün ən görkəmli yazıçılarından biridir. Yazıçı cəmi 35 il davam edən yaşamı ilə yapon ədəbiyyatı ilə yanaşı, dünya ədəbiyyatında da təkrarolunmaz bir iz buraxmışdır. Akutaqavanın yaradıcılığı forma və məzmun baxımından klassik hekayəçilikdən uzaqlaşma, insanın daxili aləminə yönəlmə və dilin estetik imkanlarını yoxlama ilə xarakterizə olunur. Yazıçının yaradıcılığından fransız, alman, rus, ingilis ədəbiyyatını dərindən bildiyi, Göte, Dostoyevski, Tolstoy, Şekspir, Bodler, Strinberq, Qoqol kimi

yazıçıların yaradıcılıq məhsullarını mütaliə etdiyi aydın şəkildə izlənilir. Akutaqava Qərb ədəbiyyatından aldıqlarını yapon ədəbiyyatı ilə harmanlayaraq Yaponiyada yeni ədəbiyyatın inkişaf yolunu müəyyənləşdirmişdir. Çünki yeni formalaşan müasir yapon ədəbiyyatında bir-birinə zidd iki mövqe mövcud idi. Bir qrup yazıçılar milli dəyərləri inkar edib, Qərbə əsaslanmağı müdafiə edirdilər. Digər qrup isə ancaq milli dəyərlərə, ənənələrə söykənməklə yeni ədəbiyyat yaratmağın mümkünlüyünü vurğulayırdılar. *"İnsan həyatı Bodlerin bir misrasına dəyməz",* – [10, s.328] deyən Akutaqava isə Qərbin təqlidçisinə çevrilmədən milli dəyərlər çərçivəsində Qərb və yapon ədəbiyyatının sintezini ortaya qoymuşdur. Akutaqava sələflərindən fərqli olaraq heç vaxt Qərbə getməsə də, onun Qərb təfəkkürü haqqında anlayışları çox dərin idi. Şuiçi Kato yazırdı ki, Qərbə səyahət etmədən, oradakı həyatla birbaşa heç bir təcrübəsi olmadan Qərb ədəbiyyatını təqdir edib bağrına basan ilk yazıçı Akutaqavadır [11, s.240]. Yaponiyanın ən nüfuzlu ədəbi mükafatlarından biri də məhz "Akutaqava" mükafatıdır. Sözügedən mükafat yazıçının ölümündən 8 il sonra – 1935-ci ildə yaxın dostu, Bungei Shunju jurnalının o vaxtki redaktoru Kan Kikuçi tərəfindən Ryunosuke Akutaqavanın xatirəsinə təsis edilmişdir. "Akutaqava" mükafatı ildə iki dəfə olmaqla, yaradıcılığa yeni qədəm qoyan ən istedadlı gənc yazarlara təqdim olunur [12].

## Əsas hissə / *Main part*

Akutaqava Ryunosuke 1892-ci ildə Tokyo şəhərində doğulmuşdur. Anası doğuşdan qısa müddət sonra ciddi psixiatrik xəstəlik olan şizofreniya ilə mübarizə aparmağa başlamış və psixiatriya mərkəzində həyatını itirmişdir. Erkən yaşda anasını itirən, atasından didərgin düşən yazıçının uşaqlığı çox çətin, travmatik keçmişdir. Anasının xəstəliyindən çox təsirlənən və onun kimi olmaqdan qorxan Akutaqava bütün həyatı boyu bu qorxudan xilas ola bilməmişdir: *"Ancaq qorxurdum ki, anam kimi dəlixanaya düşəm"* [13, s.35]. Akutaqava düşdüyü tənhalıq cəhənnəminin əzablarına tab gətirə bilməmiş, "Əsrin sonunun qəddar iblisi" [10, s.347] onun ruhuna hakim kəsilmişdi. Həyatının son dövrlərində qələmə aldığı əsərlərində yazıçının psixoloji durumu, dəlilik və ölüm arasındakı get-gəlləri, dəli ananın xatirələri, cəmiyyətdən duyduğu qorxu və həyəcanları açıq-aydın şəkildə hiss olunurdu. Yazıçı 35 illik yaşamı boyunca anasının taleyini yaşayacağı qorxusu ilə apardığı mübarizəsi qarşısında 1927-ci il iyul ayında yüksək dozada dərman içərək intihar etməklə təslim olmuşdur. *"Qəlbimi yaralayanın kədərindən, bədənimi murdarlayanın acığından ölmək istəyirəm. Bax buna görə ölmək istəyirəm. Mənim həyatım bir qara qəpiyə dəyməz! Elə ölümüm də. Amma bir qara qəpiyə dəyməsə də, bu ölüm həyatdan daha yaxşıdır"* [10, s.58]. İtalyan yazıçı Çezare Pavezenin dediyi kimi, *"hər kəsin intihar etmək üçün yaxşı bir səbəbi var"* [8, s.29].

Gənc Ryunosuke "Rounen" – "Qocalıq" (1914) hekayəsi ilə bədii yaradıclıq yolunda ilk adımını atmışdır. Yazıçı 1914-1927-ci illəri əhatə edən yaradıcılıq dövründə 150-dən çox hekayə və esse qələmə almışdır. Amerikalı tədqiqatçı Donald Keenenin yazdığına görə, Akutaqavanın hekayələri *"klassik əsər statusu qazanmış, məktəblərdə oxudulan və tez-tez təkrar nəşr olunan əsərlərdir"* [2, s.556]. Akutaqava 1916-cı ildə çap olunan "Hana"–"Burun" povesti ilə ədəbiyyat aləmində öz yerini tutmağı bacarmışdır. Prof. Dr. Ali Volkan Erdemir "Akutaqava Ryunosuke'nın "Burun" adlı öyküsüne vicdan kavramı açısından bir bakış" adlı akademik yazısında Akutaqava əsərlərinin günümüzdə də öz aktuallığını itirmədiyini növbəti sözlərlə ifadə etmişdir: *"1916'da yazılan "Burun" öyküsünün evrensel beğeni kazanıp günümüzde hâlâ sevilerek okunması, öykünün izleğinin kesin ve açık olması, olay örgüsünün sade bir üslupla işlenmesi, zaman-çevre ile başat ve yan karakterlerin inandırıcılıklarıyla birlikte, okuyucuya kendisi olmayı göze alıp alamadığı yönünde sorular sordurup, onu tedirgin etmesinden de kaynaklanmaktadır"* [1, s.41]. Yazçının yaradıcılığında başda cəmiyyət olmaqla, insan azadlığını məhdudlaşdıran, insan ruhunu əzən hər şeyə qarşı üsyan aydın şəkildə izlənilir. Yaradıclığnın ilkin dönəmlərində problemlərə qarşı ironiya ilə yanaşan yazıçı yapon cəmiyyətindəki eybəcərlikləri ələ salaraq, nə vaxtsa aradan qalxacağına ümid edirdi.

Akutaqavanın yaradıcılığına xas olan ironik yanaşması yazıçını yapon yazıçılarından çox Qərb ənənəsinə, xüsusilə "Fin de siècle" (Əsrin sonu) – Oskar Uayld, Şarl Bodler, Anatol Frans, Stefan Mallarme kimi yazarlara yaxınlaşdırırdı. *"Qərbin çağırışı" mənim hiss etdiyim şəkildə yəqin ki, Tanizakinin hiss etdiyindən fərqlidir",* – [15, s.204] deyən Akutaqava Qərbə olan marağının sırf bədii və estetik xarakter daşıdığını vurğulayırdı: *"Qərb məni həmişə təsviri sənət baxımından çağırır. (...) Və bu çağırışın məhz təsviri sənətdən gəlməsi yəqin ki, təsadüf deyil"* [15, s.205].

Yazıçının cəmi 13 ili əhatə edən yaradıcılığının ilkin dövrlərindən etibarən qələmə aldığı əsərlərində ölüm və intihar mövzusu əsas yer tutmuş və erkən dövr əsərlərində daha çox sosial, əxlaqi və mədəni kontekstlərdə təqdim edilmişdir. Yazıçının 1914-cü ildə qələmə aldığı "Seinen to şi" – "Gənclik və ölüm" hekayəsi xüsusilə diqqətəlayiqdir. Burada müəllif gəncliyin qarşılaşdığı həyat və ölüm dilemması üzərindən əxlaq, cəmiyyət və varlıq anlamlarını araşdırır. Gənc qəhrəmanların ölümə münasibəti, onların həyatın boşluqları ilə necə mübarizə apardıqlarını göstərir: *"Sən kimsən? - Mən – ölüməm. - Ölüm? - Belə qorxmaq lazım deyil. Mən olmuşam, varam və dünya durduqca da olacam. Əgər kiminsə, doğurdan da, mövcud olduğunu demək olarsa, o mənəm"* [10, s.12-13]. M.Haydegerin "Varlıq və Zaman" (1927) əsərində ölüm insan varlığının labüd və ayrılmaz hissəsi kimi təqdim olunur. Haydegerə görə insan (Dasein) varlığını yalnız ölüm gerçəyi ilə üzləşəndə tam mənada dərk edir: *"Daseinin məxsusi imkanlarının ən xas və sonuncusu onun ölümüdür"* [6, s.241]. Akutaqavanın "Gənclik və ölüm" hekayəsində ölüm personifikasiya olunaraq fəlsəfi dialoqa çevrilir: *"Sən elə bu dünyaya gələndən ölü kimi bir şeysən... Mən hər şeyi məhv edən deyiləm. Mən həyat bəxş edənəm. Sən isə məni – bütün mövcud olanların anasını unutmuşdun. Məni unutmaq həyatı unutmaq deməkdir. Həyatı unudan isə – ölməlidir"* [10, s.13]. Hekayədə ölüm bir hadisə kimi deyil, insanın dəyər dünyasında mövcud olan boşluğun simvolu kimi təqdim olunur. Akutaqava üçün ölüm yalnız bioloji sonluq deyil, həyatla bağların qopması, mənəvi və ruhi boşluğa düşməkdir. İnsan *"bu dünyaya gələndən ölü kimi"*dirsə, deməli, yaşamağa layiq olan həyat prinsiplərindən, dəyərlərdən uzaqdır, ruhən yaşamır, içindəki yaradıcılıq, dəyər, sevgi, mənəvi yaddaş simvolunu unutmuşdur. *"Bundan sonra yaşayacaqsan, ya öləcəksən – bu, sənin özündən asılı olacaq"* [10, s.14]. Akutaqavanın bu şəkildə yanaşması Haydegerin ölümə *"mövcudluğun əsas şərti"* kimi baxması ilə səsləşir.

R.Akutaqava ədəbi karyerasının ən mühüm əsərlərindən biri olan, tarixi və psixoloji məna daşıyan "Raşomon" (Raşo qapıları, 1915) hekayəsində cəmiyyətin insanları özünün ən qəddar quluna çevirməsi, saf insanların belə özləri bilə-bilə haqsızlıqlara rəvac verməl追 cəmiyyətin dəhşətli vəziyyətə düşməsini yazıçı qədim dövrlərə aid hadisələri müasirləşdirməklə, mənəvi-psixoloji cəhətdən zənginləşdirməklə təqdim etmişdir. Əsərə beynəlxalq dəyər qazandıran isə 1950-ci ildə görkəmli yapon kinorejissoru Akira Kurosava tərəfindən eyni adla ekranlaşdırılması olub. Sözügedən əsərdə ölüm açıq şəkildə təqdim olunmasa da, insanın mənəviyyatının tənəzzülü və sağ qalmaq üçün etdiyi mənəvi güzəştlər ölümə bərabər sayılır. Əsərdəki naməlum xidmətçi həyatda qalmaq üçün mənəviyyatından imtina edir – bu isə mənəvi intihar formasıdır. *"İndi o daha acından ölmək və ya oğurluq etmək seçimi arasında qalmamışdı – hələ bu harasıdır – bu dəqiqə acından ölməyin mümkünlüyü fikrindən o qədər uzaq idi ki, belə bir fikir, əslində heç onun ağlına belə gələ bilməzdi"* [14, s.16]. Sətirlərdən aydın olur ki, ölüm artıq real təhlükə kimi deyil, yaddaşdan silinmiş bir fikir kimi təqdim olunur. Xidmətçi üçün ölüm artıq qorxulu deyil, daha qorxulusu ac qalmaqdır. Bu isə onun fiziki varlığını mənəviyyatdan üstün tutduğunu göstərir. Xidmətçi əvvəlcə qocaların meyitlərini soyaraq dolanan qadına qarşı dərin qəzəb hiss edir, onu günahlandırır, mənəviyyatsızlıqda ittiham edir. Lakin qadının *"hər kəs yaşamaq üçün nə isə etməlidir"* fikrindən sonra qəhrəman öz etik dəyərlərini yenidən qiymətləndirir və özünü o qadının yerinə qoyur. Ən sonunda o da qadını soyaraq, oradan uzaqlaşır. Sartrın mühüm anlayışlarından biri olan "mauvaise foi", yəni öz azadlığından və məsuliyyətindən yayınmaq, özünü aldatmaq "Raşomon" hekayəsində çox aydın görünür. Xidmətçi əvvəlcə mənəviyyatı üstün tutur, lakin sonra ac qalmaq qorxusu ilə öz dəyərlərinə xəyanət edir. Əslində o, həyatını xilas etməyə çalışır, amma bununla bərabər, öz mahiyyətini inkar edir.

Qəhrəmanın bu davranışı onun əxlaqi baxımdan intihar etdiyi an sayılır. Yəni o, əvvəllər sahib olduğu dəyərlər sistemini – vicdanı, ədalət hissini artıq daşımaq istəmir və onu yaşamaq yükünün qarşısında qurban verir. Qəhrəman fiziki olaraq həyatını davam etdirsə də, artıq əvvəlki insan deyil, vicdanını, əxlaqını, kimliyini itirmişdir. Bu mənada ölüm əxlaqi mövqedən düşmək, özünə yadlaşmaq kimi mənalandırılır.

1916-cı ildə işıq üzü görən "Kodoku ciqoku" – "Tənhalığın cəhənnəmi" hekayəsi də Akutaqavanın gənc yaşlarında yazdığı və insanın daxili iztirabını, ruhi tənhalığını və sosial yadlaşmanı təsvir edən önəmli əsərlərindəndir. Hekayədə ölüm və intihar məsələsi birbaşa şəkildə ifadə olunmasa da, qəhrəmanın yaşadığı daxili sarsıntılar və tədrici psixoloji parçalanma süjetin əsasını təşkil edir. Əsərdə müəllif insanın təkliyi ilə cəhənnəmi eyniləşdirərək, ölümün fiziki yoxluqdan çox, ruhi bir hal kimi qəbul oluna biləcəyini vurğulayır. *"İnsanı əhatə edən nə varsa, bir göz qırpımında əzab və iztirab cəhənnəminə çevrilə bilər. Bir neçə il bundan əvvəl mən belə bir cəhənnəmə düşdüm. Heç nə məni uzun müddətə özünə bağlaya bilmir. Elə buna görə də mən daim dəyişikliklər arzusundayam. Ancaq neyləsəm də, canımı bu cəhənnəmdən qurtara bilmərəm. Əgər əhatəmi tez-tez dəyişməsəm, bundan da betər olacaq. Bax beləcə, mən sonu görünməyən dəyişikliklərlə hər növbəti günün acısını unutmağa çalışıram. Əgər nə vaxtsa bunu etməyə gücüm çatmasa, yalnız bir yolum qalacaq – ölmək"* [13, s.72-73]. Sitatın sonuncu cümləsinə əsasən söyləmək olar ki, Akutaqava intiharın fiziki yox, psixoloji prosesin nəticəsi olduğunu göstərir. Burada intihar bir qərar deyil, ruhi halın qaçılmaz yekunudur. Yazıçı qəhrəmanın dili ilə etiraf edir ki, insanın içindəki ruhi dağılma bəzən elə bir səviyyəyə çatır ki, ölüm artıq qərar deyil, alternativsiz sondur. Sartr intiharı qəti şəkildə fəlsəfi məğlubiyyət kimi görürdü. Filosofun fikrincə, intihar insanın öz azadlığını inkar etməsidir: *"Özünü öldürmək azadlıqdan qaçış formasıdır. Bu var olmaq imkanından imtina deməkdir"* [4, s.555]. "Tənhalığın cəhənnəmi"ndə qəhrəman ölüm fikrini son çıxış yolu kimi görür, lakin bu qərarı aktiv şəkildə deyil, ümidsizlik halında, azadlıqdan imtina kimi qəbul edir. Bu hal Sartrın tənqid etdiyi "azadlıqdan qaçış" vəziyyətidir. Psixiatriya həkimi Mustafa Mertərə görə, dəyərlərin itirilməsinin bədəli olduqca ağırdır: *"Yoluxucu xəstəlik səviyyəsində yayılmış narsisizm/özünəvurğunluq, xəyali bir nikbinlik, getdikcə artan ümumi təşviş və depressiya halları. Bir addım sonrakı mərhələ isə ən pis ssenaridir: İntihar!"* [3, s.7-8]. Akutaqavanın qəhrəmanı dəyişikliklər arzusunda olsa da, bu azadlığı daşıya bilmədiyi üçün intiharı alternativsiz son kimi görür. Bu da öz növbəsində qəhrəmanı ekzistensial boşluğa qərq edir. Hekayədə izlənilən fikirlər ancaq bədii qəhrəmanın düşüncələri deyil, eyni zamanda, Akutaqavanın öz daxili portretidir.

Yazıçı yaradıcılığının ən yüksək zirvəsinə məhz ölümündən bir neçə il əvvəl, yaradıcılığının üçüncü mərhələsində – 1924-27-ci illərdə çatmışdır. Bu illər ərzində qələmə aldığı əsərlərində yazıçının militarizmə, kapitalizmə qarşı barışmaz mövqeyi, sosial bərabərsizliyə qarşı üsyanları açıq şəkildə izlənilməkdədir. Bu dövrün məhsulu olan və avtobiqrafik səciyyə daşıyan "Aru aho no işşou" – "Səfehin həyatı" (1927) əsərində özü ilə dialoq quran yazıçı deyirdi: *"Nəyə görə sən müasir ictimai quruluşa hücum edirsən? – Çünki mən kapitalizmin doğurduğu şəri görürəm"* [10, s.343]. Yazıçını tənhalığa, özgələşməyə, ekzistensial böhrana sürükləyənin hər şeydən öncə məhz yaşadığı cəmiyyətdə mövcud olan ictimai quruluş olmuşdur. *"Bir qayda olaraq müasir dövrdə insanların özgələşməsi avtoritar-totalitar rejimlərin təbiəti ilə əlaqələndirirlir. Şübhəsiz ki, bu mülahizədə bir həqiqət var: totalitar rejimlərin bütün təsisatları məqsədyönlü şəkildə insanı cəmiyyətdən, təbiətdən, öz mahiyyətindən özgələşdirməyə yönəlmişlər"* [5, s.206]. Akutaqava yaradıcılığının son dövrünün ən spesifik xüsusiyyətlərindən biri də yaşam-ölüm mövzularının üstünlük təşkil etməsidir ki, özgələşmə ilə yanaşı, yazıçının özünün psixi və ruhi sarsıntıları ilə də birbaşa bağlı olmuşdur. "Səfehin həyatı" Akutaqavanın daxili dağınıqlığının və zehni iflasının dərin izlərini daşıyan intiharından öncə qələmə aldığı, lakin ölümündən sonra dostu tərəfindən çap olunan avtobioqrafik bir əsərdir. Əsərin əlyazmasını tamamlayan yazıçı onu 20 iyun 1927-ci il tarixində məktubla birgə dostu Kume Masaoya göndərir və onunla vidalaşır: *"Mən indi ən bədbəxt xoşbəxtlik içində yaşayıram.*

*Ancaq nə qədər qəribə olsa da, buna görə peşman deyiləm. Təkcə belə zay əri, zay oğlu, zay qohumu olanlara yazığım gəlir. Beləliklə, əlvida!"* [10, s.327]. Əsər birmənalı şəkildə avtobioqrafik xarakter daşıyır, çünki yazıçının şəxsi əzablarını, özünə qarşı güvən itkisini, insanlardan və Tanrıdan uzaqlaşmasını əks etdirir. "Səfehin həyatı" klassik süjet xəttindən uzaq, daha çox parçalanmış, qırıq, şüur axını (stream of consciousness) üslubunda qələmə alınmışdır. Əsərdə müəllif bir tərəfdən öz daxili dünyasının xaotikliyini təsvir edir, digər tərəfdən isə bu xaosun səbəblərini anlamağa çalışır. Akutaqava özünü bir "səfeh", yəni həyatın mənasını anlaya bilməyən, anlamda itmiş bir insan kimi təqdim edir. "Səfehlik" burada sadəcə intellektual zəiflik deyil, həyatın absurdluğuna, sosial maskalara və Tanrının səssizliyinə qarşı yönəlmiş dərin bir varoluş böhranıdır: *"Tanrının sevdikləri tez ölürlər". Onun böyük bacısının da, ögey qardaşının da evi yanmışdı. Amma böyük bacısının əri haqqında yalan ifadə verməyə görə çıxarılmış hökmün icrasını ertələmişdilər. – Kaş hamı öləydi!"* [10, s.340]. Sartr "Varlıq və heçlik" əsərində yazırdı: *"İnsan varlıqdır, amma özü haqqında düşünən, öz varlığının mənasını sorğulayan tək varlıqdır. Bu sorğu isə onu əzaba sürükləyir"* [4, s.77]. Akutaqava da məhz Sartrın ifadə etdiyi sorğulamanın yükünü daşıyırdı və səfehlik bu mənasızlığı anlamış bir şüurun ifadəsi kimi meydana çıxır. Akutaqava əsərdə intihar aktını yalnız şəxsi bir faciə kimi deyil, həm də varlıqla yoxluq arasında əzablı dialoq kimi təqdim edir: *"- Siz ölüm arzulayırsınız? -Mən... yox, heç yaşamağın məni bezdirdiyi qədər ölüm arzulamıram. -Platonic suicide (platonik intihar) – elə deyilmi? -Double platonic suicide (ikiqat platonik intihar)"* [10, s.346]. Akutaqava intiharı psixoloji və varoluşsal təlatümlərin nəticəsi kimi təqdim edir. "Səfehin həyatı" əsərində yazıçı özünün ruhi parçalanmasını, reallıqla əlaqəsinin qopmasını, yaratma imkanının tükəndiyini təsvir edərək, ölümü çətinliklərdən qurtuluşun və sakitliyin metaforası kimi göstərir. Rus ilahiyyatçı filosofu Nikolay Berdyayev "İnsanın köləliyi və azadlığı barədə" əsərində yazırdı ki, *"Ölüm şəxsiyyətin taleyində qırılmanın yaşanması, dünya ilə əlaqəsinin bitməsidir. Ölüm şəxsiyyətin daxili mövcudluğunun bitməsi, sona çatması yox, şəxsiyyət üçün öz yolunda rastlaşdığı dünyanın başqasının mövcud olmasının sonudur"* [7, s.64]. Berdyayevin ölümə bu şəkildə yanaşması Akutaqavanın ölümə baxışını simvolik olaraq tamamlayır. Əsərdə yazıçının duyduğu izolyasiya, yadlaşma və empatinin yoxluğu onun sosial və metafizik mühitlə bağlarını qopardığı halda, ölüm sadəcə, bioloji son deyil, mənəvi bir ayrılıqdır. Yəni ölüm Akutaqavanın şəxsiyyətini yox etmir, əksinə, onu bu dünya ilə bağlayan əlaqələrin artıq mövcud olmadığını simvolizə edir. Baxmayaraq ki, yazıçı özü daha öncəki yazılarında intiharın axmaqlıq olduğunu dilə gətirsə də, ruhi zəifliyi qarşısında çarəni ölümdən başqa heç nədə görə bilməmişdir: *"Mən anlayıram ki, ağıllı adamlar mənim bu axmaqlığıma güləcəklər. Elə mən özüm də gülməyi bacarıram, bu məsələdə heç kimdən geri qalmıram. Ancaq axmaqlığıma güləndə də bu axmaqlıqdan dördəlli yapışan ruhi zəifliyimə görə özümə yazığım gəlir. Özümlə birgə digər ruhən zəif insanlara da yazığım gəlir"* [10, s.326]. Akutaqavanın ölümə gedən yolunu Berdyayevin ideyaları işığında dəyərləndirdikdə, onun yaradıcılığında insan varlığının dərin, çoxqatlı, mənəvi və fəlsəfi portreti ortaya çıxır: *"Ölüm faciəsi ilk növbədə ayrılıq faciəsidir. Ancaq ölümə münasibət ikilidir, o, şəxsiyyət üçün həm də müsbət bir məna daşıyır. Bu dünyada, bu obyektivləşdirilmiş dünyada şəxsiyyət üçün həyatın dolğunluğu realizə olunmazdır, şəxsiyyətin mövcudluğu qüsurlu və natamamdır"* [7, s.64].

Sartr insanın "azadlığa məhkum edildiyini" deyirdi: *"İnsanın azadlığı onun mahiyyətindən əvvəl gəlir və bu mahiyyəti mümkün edən də məhz bu azadlıqdır"* [4, s.77]. Akutaqava isə bu azadlığın yükünü daşıya bilmədiyi üçün yeganə çıxış yolunu ölümdə görür: *"Daha məndə yazmağa hal yoxdur. Belə ruhi vəziyyətdə yaşamaq – dözülməz işgəncədir. Doğurdanmı elə bir adam tapılmayacq ki, yatdığım yerdə sakitcə məni boğa?"* [9, s.40]. Bu məqamda Qorxmaz Quliyev haqlı olaraq yazırdı ki, *"İnsan bir yerdə firlanan çevrənin içində qərarlaşmağa məhkumdur; o dünyaya azad bir varlıq kimi gəlsə də, peyda olduğu an azadlığı cəmiyyət tərəfindən əlindən alınır və yalnız ölümüylə yenidən azadlığa qovuşur"* [5, s.213]. Q.Quliyevin yanaşması Akutaqavanın intiharını sadəcə, psixoloji zəiflik deyil, həm də fəlsəfi bir qurtuluş aktı kimi anlamağa imkan verir. Akutaqava "yaşamaq

məcburiyyəti”ndən qurtulmaq üçün ölümdə “azadlıq” axtarırdı. Sartr üçün intihar “mauvaise foi” – pis niyyətli bir həll ola bilərdi, lakin Akutaqava üçün isə artıq geriyə dönüşü olmayan bir varoluş tənəzzülünün, mənəvi səssizliyin və metafizik yorğunluğun son nöqtəsi idi.

## Nəticə / *Conclusion*

Bəşər sivilizasiyasının bütün mərhələlərində ölüm təkcə bioloji hadisə kimi deyil, fəlsəfi, psixoloji, etik və estetik kateqoriyalar çərçivəsində dəyərləndirilmişdir. Müxtəlif dövrlərdə və mədəniyyətlərdə ölüm ya həyatın sonu, ya da yeni bir başlanğıc, intihar isə həm qınaq obyekti, həm də iradə azadlığının təzahürü kimi anlaşılmışdır. Ədəbiyyat isə hər zaman bu ziddiyyətli münasibətlərin əks olunduğu əsas platformalardan biri olmuşdur. Ryunosuke Akutaqavanın yaradıcılığında ölüm və intihar insan varlığının təməl suallarına cavab axtarışında mərkəzi yer tutmuş və müəllifin bədii-fəlsəfi dünyagörüşünü formalaşdıran əsas tematik dayaqlardan birinə çevrilmişdir. Akutaqava bu mövzulara yalnız insanın fiziki sonluğu kimi deyil, əxlaqi, psixoloji və estetik mövcudluğun zəifləməsi prizmasından yanaşmışdır.

Ryunosuke Akutaqavanın 1927-ci ildə intihar etməsi isə yazıçının bu mövzuya yanaşmasının yalnız bədii yox, eyni zamanda real həyatla da sıx şəkildə bağlı olduğunu göstərir. Akutaqavanın ölüm və intihara dair bədii yanaşması həm fərdi psixoloji dramın, həm də ümumbəşəri fəlsəfi-etik sualların sənət müstəvisində ifadəsi kimi təhlil oluna bilər. Bu isə öz növbəsində ədəbiyyatın insan varlığının ən mürəkkəb və paradoksal aspektlərini araşdırmaq gücünü də bir daha təsdiq edir.

## Ədəbiyyat / *References*


1. A.V.Erdemir. “Akutagava Ryunosuke’nın “Burun” adlı öyküsüne vicdan kavramı açısından bir bakış”. Adıyaman Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Sayı 4, s.36-42 (2010)
2. D.Keene. Dawn to the West. New York: Henry Holt and Co. (1984)
3. J.M.Twenge. Ben Nesli (çev; Esra Öztürk). İstanbul: Kaknüs Yayınları (2013)
4. J.-P.Sartre. L'être et le néant. Paris: Librairic Gallimard (1943)
5. Q.Quliyev. Ədəbi cərəyanlar və istiqamətlər. Bakı: “OL” NPKT (2019)
6. M.Heidegger. Being and Time. Albany: State University of New York Press (2010)
7. N.Berdyayev. İnsanın köləliyi və azadlığı barədə (tərc.ed: Vaqif Azəryar). Bakı: Qanun nəşriyyatı (2018)
8. R.A.Demirdağ. “Edebiyatta ölüm ve şair Nigâr Hanım’ın şiirlerinde intihar yazını”. Ç.Ü. Sosyal Bilimler Enstitüsü Dergisi, Cilt 29, Sayı 2, s.28-41 (2020)
9. R.Akutaqava. “Dişli çarxlar” (tərc.ed: Saday Budaqlı). “Mars” ədəbi-bədii,elmi, publisistik jurnal, №1/2, s.23-40 (2003)
10. R.Akutaqava. Tanrıların istehzası (tərc.ed; Rövşən Ramizoğlu). Bakı: Azərbaycan Tərcümə Mərkəzi (2015)
11. Sh.Kato. A history of Japanese literature, Volume 3 The modern years (translated by: Don Sanderson). Kent: Paul Norbury publications (1983)
12. 芥川竜之介 URL: https://ja.wikipedia.org/wiki/芥川龍之介賞
13. 芥川竜之介. 歯車. 日本: 岩波書店 (2003)
14. 芥川竜之介. 羅生門. 日本: ほるぷ出版 (1995)
    芥川竜之介『文芸的な、余りに文芸的な』. 芥川龍之介全集 第15巻. (編集: 紅野敏郎 ). 東京: 岩波書店, p.201-208 (1996)

# Отражение темы смерти и самоубийства в творчестве Акутагавы Рюноскэ

**Гюльнар Юнусова**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: gulnaryunusova@yahoo.com

**Резюме.** Акутагава Рюноскэ, один из самых выдающихся представителей японской литературы XX века, является писателем, способным художественно выражать темные слои человеческой психики, моральные дилеммы личности и экзистенциальный кризис. В творчестве писателя тема смерти и самоубийства представлена не только как физическое исчезновение, но и как контекст внутреннего распада личности, разрыва связи с обществом и самим собой. В этом плане смерть в произведениях Акутагавы – это не просто событие, а скорее психологическое и философское состояние – выражение духовной пустоты, краха системы ценностей и ослабления связи с жизнью. Такой подход отличает его от многих реалистичных писателей его времени. Особенно его размышления о смерти и духовности сближают Акутагаву с философией экзистенциализма. Под влиянием Фрейда он описывает подсознательные мотивы человека, невротические состояния и одиночество, что напрямую перекликается с психологическим реализмом. В то же время такие символические образы, как смерть, тьма, одиночество, зубчатые колёса, ворота (как в «Расёмоне»), являются проявлениями символизма – символистского подхода в мышлении писателя. Визуальное выражение внутреннего напряжения является элементом экспрессионизма.

Герои Акутагавы часто теряют веру в мир, в людей и в себя. Ощущение одиночества, пустоты и бессмысленности, царящее в их внутреннем мире, постепенно усиливается, что в конечном итоге приводит к неизбежному возникновению мыслей о смерти. Хотя эта смерть не всегда демонстрируется прямо, она выражается через психологическое истощение героя, разрыв эмоциональных связей и разрушение ценностей. Таким образом, самоубийство здесь – это не только биологическое исчезновение, но и духовное самоубийство, то есть ассоциация с утратой совести, веры и цели. Герои Акутагавы, говоря словами Хайдеггера, – это «существа, осознающие свою смерть»; для них смерть – это не просто конец, но способ поставить под сомнение сущность жизни. С другой стороны, Ж.П. Сартр интерпретирует самоубийство как крайнюю форму человеческой свободы, выражение воли в ее наиболее радикальной форме. В творчестве Акутагавы самоубийство не всегда является знаком слабости, а иногда проявляется как сознательный выбор или форма морального протеста.

**Ключевые слова:** японская литература, Акутагава Рюноскэ, смерть, самоубийство, внутренний распад, пустота